МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

ТАРАНА КАМИЛЬ кызы ЗЕЙНАЛОВА

# ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ И ПРАВОВЫЕ ИДЕИ ДЖАЛИЛА МАМЕДКУЛИЗАДЕ

**Специальность:** 5606.01. – Теория и история государства и права;
история учений о праве и государстве

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по праву

БАКУ – 2013

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

***Əlyazması hüququnda***

TƏRANƏ KAMİL QIZI ZEYNALOVA

# CƏLİL MƏMMƏDQULUZADƏNİN İCTİMAİ-SİYASİ VƏ HÜQUQİ İDEYALARI

**İxtisas: 5606.01. – Dövlət və hüquq nəzəriyyəsi və tarixi;
hüquq və dövlət haqqında təlimlər tarixi**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın**

## AVTOREFERATI

**BAKI – 2013**

Çapa imzalanmışdır: 25.12.2013
Format 60x84 1/16. Tiraj 100.

«Bakı Universiteti» nəşriyyatı
AZ-1148, Bakı, Z. Xəlilov küçəsi, 23

**Tarana Kamil gizi Zeynalova**

## PUBLIC-POLITICAL AND LEGAL IDEAS OF JALIL MAMMADGULUZADEH

***Summary***

In the dissertation work are researched public-political and legal ideas of Jalil Mammadguluzadeh the genius thinker and public figure of Azerbaijan.

The dissertation research consists of the introduction, three chapters – which are dealt twelve paragraphs, conclusion and the list of the literature.

In the introduction part is justified actuality of the subject, are defined its research degree, goals and positions, theoretical and methodological foundations, theoretical and practical significance of the dissertation research.

The first chapter which is «Formation of political-legal ideas of J. Mammadguluzadeh» is comprised of three paragraphs where are analysed historical factors which are objective influence upon formation of ideas about thinker, particularities of ideological directions about him, are substantiated offering by the author periodization of creative activity about the thinker, social-political directivity created and managed by his journal "Molla Nasreddin".

The second chapter «Ideas about society and state in creative activity of J. Mammadguluzadeh» is comprised of four paragraphs, are researched the positions of the thinker comparatively modern to public and political system, to colonial and national policies of the Russian tsarism, evolution of ideas about forms of government, his critiques ruling for political ideal and the way which are changed revolutionary of society.

In the third chapter «Legal ideas of J. Mammadguluzadeh» covering five paragraphs, are researched ideas of the thinker about Islamic law, its separate institutes, the origin of the law and legislation, are analysed glances about legal status of personality and human rights, especially about rights and liberties of the woman's. Certain attention is given glance of J. Mammadguluzadeh about questions of the international legal relations.

The conclusion of the dissertation research contains the findings of the author on discussed issues, which are characterized by novelty of their production, approaches and solutions.



**Dissertasiya işi Bakı Dövlət Universitetinin «Dövlət və hüquq nəzəriyyəsi və tarixi» kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:**
***Azərbaycan MEA-nın müxbir üzvü, Azərbaycan Respublikasının əməkdar hüquqşünası, hüquq üzrə elmlər doktoru, professor***
**M.F. MƏLİKOVA**

**Rəsmi opponentlər:**
– ***hüquq üzrə elmlər doktoru*** **Ə.İ. HÜSEYNOV**
– ***hüquq üzrə fəlsəfə doktoru*** **D.M. MƏMMƏDOVA**

**Aparıcı təşkilat:**
**Azərbaycan Respublikası DİN-nin Polis Akademiyasının «Dövlət və hüquq nəzəriyyəsi» kafedrası**

**Dissertasiya işinin müdafiəsi "01" 02 2014-cü il tarixdə saat "___" Bakı Dövlət Universiteti nəzdindəki FD. 02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.**

***Ünvan*: AZ-1143, Bakı şəhəri, Z. Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris binası, 901 saylı auditoriya.**

**Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.**

**Avtoreferat "___" _________ 2013-cü ildə göndərilmişdir.**

**FD. 02. 013 Dissertasiya**
**şurasının elmi katibi,**
**hüquq üzrə fəlsəfə doktoru Ə.Q. MƏMMƏDOV**

**Тарана Камиль кызы Зейналова**

## ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ И ПРАВОВЫЕ ИДЕИ ДЖАЛИЛА МАМЕДКУЛИЗАДЕ

### *Резюме*

В настоящей диссертационной работе исследуются общественно-политические и правовые воззрения видного азербайджанского мыслителя, общественного деятеля Джалила Мамедкулизаде.

Диссертация состоит из введения, трех глав, объединяющих двенадцать параграфов, заключения и списка литературы.

Во введении обосновывается актуальность темы, определяются степень ее разработанности, цели и задачи, теоретические и методологические основы, теоретическая и практическая значимость диссертационной работы.

Первая глава «Формирование политико-правовых идей Дж. Мамедкулизаде» состоит из трех параграфов. В ней анализируются исторические факторы, объективно оказавшие влияние на формирование идей мыслителя, особенности и отличия идеологических направлений, обосновывается предлагаемая автором периодизация творчества мыслителя, социально-политическая направленность созданного и руководимого им журнала «Молла Насреддин».

Во второй главе «Идеи об обществе и государстве в творчестве Дж. Мамедкулизаде», состоящей из четырех параграфов, исследуются позиции мыслителя относительно современного ему общественного и государственного строя, колониальной и национальной политики Российской империи, эволюция взглядов мыслителя по вопросам формы государства, а также исследован вопрос о его политическом идеале и революционном пути преобразования общества.

В третьей главе «Правовые идеи Дж. Мамедкулизаде», охватывающей пять параграфов, исследуются идеи мыслителя о мусульманском праве, его отдельных институтах, происхождении права, законодательстве, о правовом положении личности и правах человека, особенно о правах и свободах женщин. Определенное внимание уделено исследованию взглядов Дж. Мамедкулизаде по вопросам международно-правовых отношений.

Заключение диссертационной работы содержит выводы автора по рассмотренным вопросам, которые характеризуются новизной их постановки, подходов и решения.

9. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan siyasi-hüquqi ideologiyasında şəxsiyyətin azadlığı məsələləri / 10 dekabr Beynəlxalq İnsan hüquqları gününə həsr olunmuş «Qloballaşma dövründə insan hüquqları və milli hüquq sistemləri» mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları (13-14 dekabr 2012-ci il). s. 28-31.



## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Tədqiqat mövzusunun aktuallığı. Azərbaycanda müstəqilliyin əldə edilməsi, yeni dövlət quruculuğunun və hüquqi sistemin formalaşması, demokratik islahatların aparılması şəraitində milli ideologiya özünün müxtəlif təzahür formalarında – fəlsəfə, sosiologiya, siyasi, hüquqi və s. formalarda diqqət mərkəzindədir. Müasir tarixi şərait elmi müddəa və kateqoriyaların baxılmasına yeni yanaşma, mühüm problemlərin həlli istiqamətində mövqelərin yenidən nəzərdən keçirilməsini və qiymətləndirilməsini tələb edir.

Özünün kökləri ilə əsrlərin dərinliklərinə uzanan Azərbaycanın ictimai-siyasi və hüquqi ideyaları milli ideologiyanı formalaşdırır və onun özülünü təşkil edirlər. İctimai fikrin inkişafının tarixi prosesinin hər bir mərhələsi ideologiyanın bütöv sisteminə dövlət-hüquq problemlərinin həlli baxımından zamanla uzlaşan yeni məsələlər, yeni elmi müddəalar gətirmişdir ki, bunların da müəllifləri öz yaradıcılıqları ilə dünyanın görkəmli mütəfəkkirləri sırasına daxil olmuş, mənsub olduqları ölkənin şərəfini daha da ucaltmışlar.

Azərbaycanın siyasi-hüquqi fikir tarixində XIX-XX əsrin əvvəllərində mühüm yer tutan görkəmli mütəfəkkirlər: A. A. Bakıxanov, M. Kazımbəy, M.F. Axundzadə, H.B. Zərdabi, M. Şahtaxtlı, N. Nərimanov və digərləri yalnız siyasi-hüquqi təlimlərin yaradıcıları kimi deyil, həmçinin dövlət və ictimai xadimləri kimi, öz xalqının layiqli həyatı naminə yorulmaz mübarizlər kimi tanınmışlar.

Azərbaycanın görkəmli mütəfəkkirləri sırasında özünün zəngin yaradıcılıq irsi, geniş təfəkkürü ilə seçilən məşhur «Molla Nəsrəddin» jurnalının yaradıcısı və redaktoru C.Məmmədquluzadənin ictimai-siyasi və hüquqi ideyaları xalqın siyasi və hüquqi şüurunun formalaşmasında, milli özünüdərkin oyanışında, insanların müstəqillik, azadlıq, bərabərlik ruhunda tərbiyə edilməsində və maarifləndirilməsində mühüm sosial-siyasi əhəmiyyətə malikdir.

C.Məmmədquluzadənin yaradıcılığı Azərbaycanın ictimai-siyasi və hüquqi fikir tarixində ayrıca bir dövrü təşkil etməklə, onun müasiri olduğu dövrdə Azərbaycanın iqtisadi, sosial-siyasi vəziyyətinin, Rusiya imperiyasının müstəmləkə siyasəti şəraitində xalqın siyasi şüurunun, ölkənin və xalqın durumunun öyrənilməsi və dərk edilməsi üçün zəngin, tükənməz bir mənbə rolunu oynayır.

C.Məmmədquluzadə və onun ərsəyə gətirdiyi «Molla Nəsrəddin» jurnalının fəaliyyəti dövrü ölkəmizin hüdudlarından kənarda da geniş siyasi rezonans yaratmış tarixi hadisələrlə zəngindir. Onun bir mütə-

fəkkir və ictimai xadim kimi çalışdığı tarixi zaman kəsiyi Azərbaycanın ictimai-siyasi və hüquqi fikir tarixində milli istiqlal, demokratiya və vətən azadlığı uğrunda mübarizə dövrü olmuşdur. 1918-1920-ci illərdə Şərqdə ilk respublika dövlətinin, Azərbaycan dövlətçiliyinin və bütövlükdə ictimai həyatın inkişafının demokratik əsaslarını qoymuş müstəqil Azərbaycan Demokratik Respublikasının yaranmasının da məhz C.Məmmədquluzadənin dövrünə təsadüf etməsi rəmzi məna daşıyır. Həmin demokratik əsaslar tarixilik və tarixi varislik prinsipləri baxımından müstəqil Azərbaycan Respublikasının hüquqi aktlarında öz əksini tapmış və bu gün də ölkəmizin dövlət quruculuğunun təməlini təşkil etməkdədir.

Dövrünün qızğın siyasi münaqişələrinə, ictimai təlatümlərinə biganə qalmayan, ölkəsinin və xalqının rifahı naminə mübarizə aparan C.Məmmədquluzadənin yaradıcılığındakı xüsusiyyətlərə və orijinallığa, dünyəvi əhəmiyyətinə, yaradıcılıq həyatında müstəqillik, azərbaycançılıq, millilik və azadlıq prinsiplərini rəhbər tutduğuna və vətəndaş mövqeyindən çıxış etməsinə rəğmən, onun ictimai-siyasi və hüquqi ideyalarının öyrənilməsi, müasir elm qarşısında bu zəngin irsin təhlil edilməsi mühüm bir vəzifə kimi durur. Onun yaradıcılıq irsinin tam öyrənilməməsi və araşdırılmaması müasir Azərbaycanda ictimai-siyasi ideologiyanın təşəkkülü və inkişaf tarixinin obyektiv qiymətləndirilməsini mümkünsüz edir.

Ümummilli lider H.Əliyevin C.Məmmədquluzadə yaradıcılığına verdiyi qiymət onun çoxşaxəli və dərin məzmunlu fəaliyyətinin, ictimai-siyasi həyatın bütün sahələrində, xüsusən də dövlət və hüquq sahəsindəki zəngin yaradıcılıq irsinin öyrənilməsinin hər zaman vacib olduğunu özündə ehtiva edir və bu sahədə tədqiqatların aparılmasını istiqamətləndirir. Ulu öndər göstərir: «*C.Məmmədquluzadə yaradıcılığı elə bir dəryadır ki, o dəryanın dibinə gedib çatmaq, hamısını əhatə etmək mümkün deyildir*»[1].

Dövrünün böyük mütəfəkkiri və ictimai xadimi C.Məmmədquluzadənin ictimai-siyasi və hüquqi baxışlarının xalqımızın milli-mənəvi oyanışında, siyasi və hüquqi şüurunun formalaşmasında, onun sivil dünya xalqları cərgəsinə qoşulmasında rolu və əhəmiyyətinin dərindən dərk edilməsi, mütəfəkkirin siyasi-hüquqi irsinin tədqiqi və ümumbəşəri prinsiplər kontekstində qiymətləndirilməsi artıq özlüyündə mövzunun aktuallığının bariz sübutudur.

Mövzunun elmi işlənmə dərəcəsi. XX əsr Azərbaycan elmində

[1] Əliyev H.Ə. Müstəqillik yollarında. 4 cilddə. II cild. Bakı: Azərnəşr, 1997, s. 402-403.



anlatmağa var qüvvəsi ilə səy göstərirdi və bu işdə inqilabi hərəkatın, radikal siyasi islahatların vacibliyini bir daha xüsusi olaraq vurğulayırdı.

Araşdırmada qeyd olunduğu kimi, C.Məmmədquluzadənin beynəlxalq-hüquqi görüşlərinin mühüm hissəsi müharibə və sülh məsələlərinə həsr olunmuşdur. Ümumiyyətlə, mütəfəkkir imperialist müharibələrinin ədalətsizliyindən geniş bəhs etmiş, xalqlar arasında sülh, dostluq, əməkdaşlıq ideyalarını təbliğ etmişdir.

Dissertasiya işinin nəticə hissəsində tədqiqata cəlb olunan məsələlərin təhlili əsasında müəllifin gəldiyi nəticələr və ümumiləşdirmələr əks olunmuşdur.

Dissertasiya tədqiqatının əsas müddəaları müəllif tərəfindən dərc etdirilmiş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:


1. C.Məmmədquluzadə və qadın azadlığı problemi // Bakı Universitetinin xəbərləri, sosial-siyasi elmlər seriyası, 2006, №3, s. 56-62.
2. C.Məmmədquluzadə dövlət quruluşu və idarəçilik formaları haqqında // BDU-nun xəbərləri» sosial-siyasi elmlər seriyası, 2008, №2, s. 79-85.
3. «Molla Nəsrəddin» jurnalının nəşr tarixindən / AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu. Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Bakı, 2008, 21-ci buraxılış, s. 17-23.
4. C.Məmmədquluzadənin siyasi-hüquqi görüşlərində şəxsiyyətin hüquqi vəziyyəti məsələsi // Hüquqi dövlət və qanun, 2008, № 12, s. 52-55.
5. Национальный вопрос в творчестве Азербайджанского мыслителя Джалила Мамедкулизаде // «Юрист», Алмата, 2009, № 12, с. 79-80.
6. Некоторые аспекты политических и правовых взглядов Дж. Мамедкулизаде / Сборник научных трудов по материалам международной научно-практической конференции «Научные итоги 2010 года», ч. 2, с. 91-93
7. C.Məmmədquluzadənin yaradıcılığında ictimai-siyasi və hüquqi ideyalar / AMEA-da keçirilən beynəlxalq konfrans. Bakı, 9-11 may 2011-ci il. s. 510-511.
8. «Molla Nəsrəddin» jurnalının ideya və siyasi istiqamətləri / «Dövlət və hüquq quruculuğunun aktual problemləri» mövzusunda 11-ci respublika elmi-praktik konfransın materialları. Bakı, 11-12 may 2011-ci il, s. 31-32.

sində insanların qanun və məhkəmə qarşısında bərabərliyi, aşkarlıq, məhkəmə baxışının bilavasitəliyi, fasiləsizliyi, ədalət mühakiməsinin milli dildə aparılması kimi prinsiplərə əsaslanan mühakimə icraatının qurulmasının tərəfdarı olduğu xüsusilə diqqəti çəkir.

Dissertasiyanın III fəslinin sonuncu yarımfəslində C.Məmmədquluzadənin beynəlxalq hüquq *- haqqında ideyalarının təhlili həyata keçirilmişdir. Əsrin əvvəllərində gərginləşməkdə olan beynəlxalq münasibətlər və beynəlxalq hüquq məsələləri də C.Məmmədquluzadənin diqqətindən kənarda qalmamışdır. Mütəfəkkirin aktiv ictimai xadim kimi fəaliyyəti onu daima beynəlxalq həyatın mərkəzində olmağa, siyasi hadisələrə vaxtında və düzgün qiymət verməyə sövq edirdi. Onun rəhbərlik etdiyi «Molla Nəsrəddin» jurnalı dünyanın beynəlxalq vəziyyəti, müxtəlif siyasi hadisələrə dair məqalə və felyetonlar dərc edir, həmin hadisələrə öz münasibətini bildirirdi.

Tədqiqatçı göstərir ki, C.Məmmədquluzadə və «Molla Nəsrəddin» jurnalında dərc edilən digər müəlliflər də beynəlxalq hüququn və beynəlxalq münasibətlərin məlum olan əsas prinsiplərinin gözlənilməsini zəruri bir məsələ kimi qoyurdular. Onların məqalə və felyetonlarında beynəlxalq hüququn əsas prinsipləri olan dövlətlərin suveren bərabərliyi, daxili işlərinə qarışmama, millətlərin öz müqəddəratını təyin etmə və s.-nin beynəlxalq-hüquqi doktrinada hər bir dövlətin xarici siyasətinin əsasını təşkil edən prinsiplər kimi qəbul edilməsi tələbi irəli sürülürdü. Məhz bu mövqedən çıxış edən jurnalın səhifələrində müstəmləkəçilik siyasəti İranın timsalında tənqid olunur, inqilabi hərəkatın yatırılmasında İran hökumətinə fəal yardım edən xarici dövlətlər ciddi tənqid atəşinə tutulurdu. Jurnalda ABŞ, İngiltərə, Almaniya, Rusiya kimi imperialist ölkələrin müstəmləkə siyasəti, İranın iqtisadi və siyasi cəhətdən asılılığa salınması cəhdləri cəsarətlə ifşa edilirdi.

Araşdırmada daha sonra mütəfəkkirin böyük dövlətlərin Asiya və Afrikada yeritdikləri milli-müstəmləkəçilik siyasətinə kəskin etirazını, xalqları bu siyasətə qarşı barışmaz mübarizəyə çağırışını əks etdirən məqamlara aydınlıq gətirilir.

İddiaçının mövqeyincə, C.Məmmədquluzadə XX əsrin ictimai-siyasi hadisələrinin Şərq xalqlarına, onların milli mənlik şüurunun oyanmasına təsirini özünəməxsus ustalıqla açıb göstərə bilmişdir. O, millətlərin iqtisadi, mədəni inkişafındakı qeyri-bərabərliyə milli-müstəmləkəçilik siyasətinin nəticəsi kimi yanaşır, bütün Şərq xalqlarına Avropa, Amerika müstəmləkəçilərindən azad olmaları üçün öz milli mənafelərini dərk edib, müstəqil inkişafını təmin etməyin zərurətini



C.Məmmədquluzadə yaradıcılığı hər zaman diqqət mərkəzində olmuşdur. İlk növbədə qeyd etmək lazımdır ki, mütəfəkkirin bədii əsərləri, məqalə və felyetonları vaxtaşırı toplu şəklində nəşr olunmuş və bu proses indiyədək davam etməkdədir.

C.Məmmədquluzadənin əsərlərinin nəşri ilə paralel olaraq onun ədəbi-bədii yaradıcılığı, publisistikası, «Molla Nəsrəddin» jurnalının nəşri ilə bağlı zəngin və əhatəli ictimai fəaliyyəti istər sovet hakimiyyəti illərində, istərsə də, Azərbaycanın öz müstəqilliyini əldə etməsindən sonrakı dövrdə tədqiqatçı-alimlər tərəfindən dərindən araşdırılmış, həmin məsələlər sanballı əsərlərdə özünün təcəssümünü tapmışdır.

Bütün yuxarıda qeyd olunan tədqiqatlar müxtəlif vaxtlarda Ə.Nəzmi, F.Köçərli, Ə.Şərif, Ə.Mirəhmədov, M.C.Paşayev, A.Zamanov, Q.Məmmədli, Y.Ələkbərov, M.İbrahimov, İ.Həbibbəyli, A.Əliyev, N.Axundov, T.Həsənzadə, Y.Qarayev, Y.Əliyev, K.Məmmədov və digərləri tərəfindən aparılmışdır. C.Məmmədquluzadənin həyat və yaradıcılığı, ictimai fəaliyyəti haqqında müəlliflər kollektivinin ərsəyə gətirdiyi tədqiqat əsərlərini də bu sıraya daxil etmək lazımdır.

Bununla belə göstərilən müəlliflərin əsərləri daha çox mütəfəkkirin ədəbi-bədii, publisistik, fəlsəfi-etik ideyalarına həsr edilmiş, siyasi-hüquqi problemlər isə bu əsərlərin xüsusi tədqiqat predmetini təşkil etməmişdir. Təəssüflə qeyd etmək lazımdır ki, hələ indiyə kimi C.Məmmədquluzadənin məhz dövlət-hüquqi görüşlərinə həsr edilmiş kompleks tədqiqat işləri yox dərəcəsindədir. Bu sahədə Y. Ələkbərovun 1962-ci ildə yazdığı «C.Məmmədquluzadənin dövlət-hüquqi təlimləri» adlı namizədlik dissertasiyasını müstəsna hesab etmək olar. Y. Ələkbərovun dissertasiya işini mütəfəkkirin yaradıcılığının ilk monoqrafik tədqiqatı kimi yüksək qiymətləndirməklə yanaşı, qeyd etmək lazımdır ki, bu araşdırma o dövrdə hökm sürən sovet ideologiyasının mahiyyətindən irəli gələn tələblər əsasında məhdud çərçivədə aparılmışdır ki, bu da obyektiv olaraq müəllifin tədqiqata yanaşmasına, C.Məmmədquluzadənin siyasi-hüquqi görüşləri və ictimai fəaliyyətinə verdiyi qiymət və nəticələrə müəyyən təsir göstərmişdir.

Mütəfəkkirin irsinin öyrənilməsinə M.F. Məlikova və E.R. Bayramovun «Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi» monoqrafiyası mühüm töhfə vermişdir. Bu fundamental əsər qədim dövrlərdən başlayaraq Azərbaycanın siyasi-hüquqi təlimlər tarixinin öyrənilməsini bütövlükdə əhatə etdiyindən, C.Məmmədquluzadənin yaradıcılığı burada Azərbaycan mütəfəkkirlərinin təlimləri sistemində araşdırılmışdır.

Yuxarıda qeyd olunanlar, o cümlədən mövzunun aktuallığı və

vacibliyi bir daha C.Məmmədquluzadənin ictimai-siyasi və hüquqi fikirlərinin kompleks şəkildə tədqiq edilməsini zəruri edir.

Tədqiqatın obyekti və predmeti. Dissertasiya tədqiqatının obyektini C.Məmmədquluzadənin ictimai, siyasi və hüquqi baxışlarının təhlili təşkil edir. Tədqiqatın predmeti mütəfəkkirin siyasi-hüquqi problemləri özündə əks etdirən əsərlərinin məzmununun araşdırılması nəticəsində onların zamanın tələblərinə uyğun olaraq qiymətləndirilməsindən, C.Məmmədquluzadənin ictimai və dövlət quruluşuna, idarəçilik sisteminə, milli məsələlərə, şəriət normalarına münasibətini əks etdirən, həmçinin cəmiyyətə, dövlətə, hüquqa, onun ayrı-ayrı sahələrinə, xüsusən də ailə-nikah münasibətlərinə, cinayət və cəza məsələlərinə, qanunvericiliyə aid fikirlərinin öyrənilməsindən və təhlilindən ibarətdir.

Tədqiqatın məqsəd və vəzifələri. Dissertasiya işinin əsas məqsədi ilkin mənbələrin təhlili və monoqrafik tədqiqatların öyrənilməsi əsasında C.Məmmədquluzadənin siyasi və hüquqi fikirlərinin, ilk növbədə cəmiyyət, dövlət, hüquq, şəxsiyyətin cəmiyyətdə hüquqi vəziyyəti, insan hüquq və azadlıqları, beynəlxalq münasibətlər və s. məsələlərə dair fikir və baxışlarının elmi araşdırmasını vermək və Azərbaycanda ictimai-siyasi fikrin tarixi inkişafında rolunu aydınlaşdırmaqdan ibarətdir. Tədqiqat işi yerinə yetirilərkən qarşıda duran məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

– C.Məmmədquluzadənin yaşadığı mühitin, onun dünyagörüşünün formalaşmasını şərtləndirən tarixi amillərin ətraflı təhlili;

– mütəfəkkirin siyasi-hüquqi görüşlərinin formalaşması və onun yaradıcılığının dövrləşməsi məsələsinə münasibətin bildirilməsi, onun siyasi-hüquqi baxışlarının təkamülü istiqamətlərinin müəyyənləşdirilməsi;

– «Molla Nəsrəddin» jurnalında siyasi-hüquqi fikrin inkişafı istiqamətlərinin müəyyən edilməsi;

– C.Məmmədquluzadənin mövcud ictimai və dövlət quruluşuna münasibətinin təhlili və əsas xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

– mütəfəkkirin cəmiyyətin və dövlətin dəyişdirilməsinin yolları məsələsinə münasibətinin təkamülünün araşdırılması;

– C.Məmmədquluzadənin mütləqiyyət, dövlət, onun mexanizmi, idarə formaları haqqında fikirlərinin təkamülü prosesinin təhlili;

– C.Məmmədquluzadə tərəfindən Rusiya imperiyasının müstəmləkə siyasətinin tənqidinə yönəlik fikirlərin, milli bərabərlik, milli münasibətlər, xalqlar dostluğu ilə bağlı irəli sürülən tələblərin mahiyyətinin



olunmuşdur. C.Məmmədquluzadənin mülki hüquq məsələləri haqqında baxışlarının mahiyyətinə diqqəti çəkən iddiaçı əmlak münasibətlərinin, xüsusən də torpaqla bağlı mülkiyyət münasibətlərinin ədalətli tənzimini, bu zaman aşağı təbəqələrin mənafelərinin gözlənilməsini vacib hesab edən mütəfəkkirin mövqeyinə özünün münasibətini bildirir.

Mütəfəkkirin əsərlərində ətraflı surətdə işıqlandırılan məsələlərdən biri olan ailə-nikah münasibətlərinin tənzimlənməsi ilə bağlı baxışları təhlil edilmişdir. C.Məmmədquluzadə ailə-nikah məsələlərində qadının kölə vəziyyətini qanuniləşdirən şəriət normalarını, xüsusən də nikaha daxil olma və boşanma məsələlərində onun hüquqsuzluğunu tənqid edir, bütün bunların dünyəvi hüquq normaları əsasında tənzimlənməsini, bu məsələlərdə din xadimlərinin israrla müdaxilə etdikləri adətlərin, xüsusən də müvəqqəti nikahların, çoxarvadlılığın ləğv olunmasını tələb edirdi.

Tədqiqatçı qeyd edir ki, C.Məmmədquluzadə həmçinin əmək hüququ məsələlərinə də öz münasibətini bildirmişdi. O, yeni siyasi quruluş çərçivəsində fəhlələr haqqında qanunvericiliyin tamamilə yeni prinsiplər əsasında qurulmasını tələb edirdi. Mütəfəkkirin mövqeyincə, əmək münasibətləri sahibkarların özbaşınalığının aradan qaldırılmasına, tərəflərin azadlığı və bərabərliyinə yönəlik əsaslar üzərində qurulmalı, iş və istirahət vaxtlarının dəqiq müəyyənləşdirilməsi, məzuniyyət hüququnun verilməsi, əmək şəraitinin yaxşılaşdırılması ilə bağlı hüquqi tədbirlər həyata keçirilməlidir. Yeni qanunvericiliyin həyata keçirdiyi mühüm tədbirlərdən biri də, şübhəsiz ki, əmək miqrantlarının hüquqlarının təmin edilməsindən, fəhlə və qulluqçuların ayrı-seçkiliyə yol verilmədən məhkəmə qarşısında bərabərliyinin təmin edilməsi, sahibkarlar tərəfindən törədilən hüquq pozuntularının dərhal müvafiq surətdə cəzalandırılmasından ibarət olmalıdır. Daha sonra, cinayət və mühakimə icraatı məsələləri ilə bağlı C.Məmmədquluzadənin baxışlarının araşdırma obyektinə çevrildiyi bu yarımfəsildə cinayət və cəza, dövlətin cəza siyasəti ilə bağlı məsələlərdən bəhs edilir və mütəfəkkirin bu münasibətlərin qanun müstəvisindən kənara çıxmasının əleyhinə olduğu, cinayətkarların cəzalandırılması ilə bağlı yol verilən qanunsuzluğu və özbaşınalığı tənqid etdiyi açılıb göstərilir. C.Məmmədquluzadə hər bir ictimai qaydanı pozan, insan əleyhinə olan hüquq pozuntularına görə cəzanın labüdlüyünü önə çəkirdi.

Mütəfəkkirin hüquqi baxışları içərisində ədalət mühakiməsi məsələsi də önəmli yer tutmuşdur. Onun «Faydalı təşəbbüs» adlı məqalə-

olaraq istədiyi təşkilatda birləşməsi hüquqlarını müdafiə edir, bütün bu hüquqların təminatını siyasi plüralizmdə görürdü.

C.Məmmədquluzadənin insan hüquqları haqqında fikirlərinin mühüm özəlliklərindən biri xalqların, millətlərin hüquqları və bu hüquqların məzmunu haqqında fikirlər yürütməsi olmuşdur. O, hesab edirdi ki, yalnız möhkəm milli mənliyi və birliyi olan xalq tərəqqi edə bilər, müstəmləkəçilik siyasətinə, zülm və istibdada qarşı dayana bilərdi. Bu cəhətdən mütəfəkkirin siyasi görüşlərində xalqın milli birliyi probleminin ön plana çəkilməsini heç də təsadüfi hesab etmək olmaz. Çünki bilavasitə siyasi-hüquqi məzmuna malik olan milli-azadlıq probleminin əsasında məhz milli özünüdərk, milli müqəddəratın müəyyən edilməsi və milli birlik ideyaları dayanırdı. Bunları həll etmədən, heç bir uğurlu siyasi mübarizədən söhbət gedə bilməzdi. Mütəfəkkir, həmçinin milli mənsubiyyət hüququnun təmin edilməsinin bilavasitə ifadəsi kimi milli dilin inkişaf etdirilməsi hüququnu da göstərir və bildirirdi ki, hər bir xalqın öz dilini mühafizə etməsi onun mövcudluğunun qorunması üçün təbii yoldur.

Dissertasiyanın «C.Məmmədquluzadə qadın azadlığı haqqında» adlanan üçüncü yarımfəslində mütəfəkkirin bərabərlik hüququ kontekstində nəzərdən keçirdiyi əsas insan hüquqları sırasında qadınların sosial və hüquqi vəziyyəti problemindən də bəhs olunur. Mütəfəkkir qadınların kişilərlə bərabər hüquqlu olmalarına, siyasi hüquqlara - cəmiyyət və dövlət işlərində iştirak etmələri haqqında fikirlərinə həsr olunmuş silsilə məqalələrində («Arvadbazlıq», «Hicab məsələsi və cavabımız», «Kişi gəlir», «Anam-bacım», «Şərq qadını», «Molla Cəfərqulu» və s.) qadınların hüquq və azadlıqlarının təmin edilməsinin demokratik siyasi quruluşun əsasında dayanan vacib şərt olmasını da əsaslandırmışdır.

Qadın emansipasiyasının tərəfdarı olan C.Məmmədquluzadə qadın azadlığı problemini şəxsiyyətin hüquqi vəziyyəti kontekstində mühüm məsələ kimi irəli sürməklə yanaşı, onun bütün xalqın azadlığı ilə üzvü surətdə bağlayırdı və qadın azadlığını milli tərəqqinin əlamətlərindən biri hesab edirdi. C.Məmmədquluzadə Azərbaycan qadınlarının mədəni səviyyəsi və hüquqlarının Avropa qadınları səviyyəsində olmasını arzulayaraq qeyd edirdi ki, bu səviyyəyə çatmaq üçün qadınlar təhsil almalı, işləməli, fəal həyat mövqeyi tutmalı, öz hüquqlarını müdafiə etməyi bacarmalı, bunun üçün ictimai təşkilatlar yaratmalıdırlar.

Dissertasiyanın bu fəslinin «C.Məmmədquluzadənin ayrı-ayrı hüquq sahələri ilə bağlı fikirləri» adlanan dördüncü yarımfəslində mütəfəkkirin müxtəlif hüquq sahələri ilə bağlı ideyalarından bəhs



açıqlanması;

– mütəfəkkirin hüquqi fikirlərinin, ayrı-ayrı hüquq sahələri və institutları, qanun və qanunçuluq məsələlərinə münasibətinin araşdırılması;

– onun şəxsiyyətin cəmiyyətdə hüquqi vəziyyəti, insan hüquq və azadlıqları, şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətlər haqqında fikirlərinin təhlili;

– C.Məmmədquluzadənin yaradıcılığında və ictimai fəaliyyətində qadın problemi, qadınların hüquq bərabərliyi və azadlığı haqqında ideyaları və praktik fəaliyyətinin qiymətləndirilməsi;

– mütəfəkkirin beynəlxalq münasibətlərə dair məsələlərə, dünya əhəmiyyətli siyasi hadisələrə münasibətinin təhlili;

– C.Məmmədquluzadənin siyasi idealı, cəmiyyət, dövlət haqqında fikirlərinin tədqiqi;

– mütəfəkkirin Azərbaycanın siyasi-hüquqi fikir tarixində yaradıcılığının və rolunun qiymətləndirilməsi, siyasi və hüquqi təlimlərin inkişafı prosesində onun irsinin tutduğu yerin müəyyənləşdirilməsi.

Tədqiqatın metodoloji əsası. Dissertasiyanın yazılmasında bir sıra ümumi və xüsusi elmi metodlardan – konkret tarixi, məntiqi-hüquqi, sistemli analiz, müqayisəli, formal-hüquqi və xüsusi sosioloji metodlardan istifadə edilmişdir.

Tədqiqatın nəzəri əsası. Dissertasiya tədqiqatı ilkin mənbələrə – C.Məmmədquluzadənin əsərlərinin, «Molla Nəsrəddin» jurnalının səhifələrində, eləcə də digər mətbu orqanlarında dərc edilmiş məqalə və felyetonların təhlilinə əsaslanmışdır. Eyni zamanda C.Məmmədquluzadə yaradıcılığının müxtəlif aspektlərinə, onun zəngin mənəvi irsinin tədqiqinə həsr olunan elmi əsərlər tədqiqata cəlb olunmuşdur.

Tədqiqatın elmi yeniliyi. Dissertasiya işində ilk dəfə olaraq C.Məmmədquluzadənin siyasi-hüquqi fikir və ideyaları sistemli və kompleks şəkildə müasir dövrün tələblərinə uyğun olaraq yeni mövqe sərgilənməklə təhlil edilmişdir. Mütəfəkkirin ictimai və siyasi quruluş, hüquq sistemi ilə bağlı əsərləri ilkin olaraq hüquqi səpgidə araşdırılmış və onların əsasında C.Məmmədquluzadənin siyasi-hüquqi görüşlərinin mahiyyəti açılıb göstərilmişdir. Mövzu ilə bağlı müəllif aşağıdakı elmi müddəaları müdafiəyə təqdim edir:

– C.Məmmədquluzadənin siyasi-hüquqi baxışlarının, ümumiyyətlə, dünyagörüşünün formalaşmasına təsir göstərən sosial-iqtisadi və mənəvi-mədəni şərait araşdırılmış və müasir elmin inkişafı nailiyyətlərinə

əsaslanaraq obyektivlik prinsipi rəhbər tutulmaqla yeni mövqedən qiymətləndirilmiş, XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda mövcud olan əsas ictimai-siyasi və hüquqi fikir istiqamətlərinin səciyyəvi cəhətləri açılıb göstərilmişdir;

– C.Məmmədquluzadə yaradıcılığında ictimai-siyasi ideyaların təkamülü prosesi izlənmiş, onların kompleks şəkildə təhlili həyata keçirilmiş, siyasi və hüquqi fikirlərinin inkişafının aşağıdakı kimi üç dövrə bölünməsi daha əsaslı hesab edilmişdir:

1) 1882-1906-cı illər – mütəfəkkirin siyasi dünyagörüşünün əsaslarının, rüşeymlərinin qoyulduğu dövr;

2) 1906-1917-ci illər – mütəfəkkirin ictimai və dövlət quruluşu, siyasət və hüquq haqqında fikirlərinin formalaşdığı və inkişaf etdiyi dövr;

3) 1917-1931-ci illər – mütəfəkkirin siyasi və hüquqi ideyalarının təkmilləşməsi, siyasi ideal haqqında təsəvvürlərinin yetkinləşməsi dövrü;

– C.Məmmədquluzadənin mütləqiyyətə, çar istibdadına, feodal quruluşuna, burjua münasibətlərinə, dövlət quruluşu və onun formalarına münasibətinin yeni prizmadan ümumbəşəri dəyərlər baxımından təhlili həyata keçirilmiş, mütəfəkkirin demokratiya və xalq kütlələrinin cəmiyyətin siyasi həyatında, dövlət idarəçiliyində, bütövlükdə digər ictimai təsisatlarda iştirakı ilə bağlı ideyalarının mahiyyəti açılıb göstərilmişdir. Dissertasiya işində mütəfəkkirin aşağıdan yuxarıya doğru bütün təşkilatların seçkili olması tələblərini irəli sürməsi, respublika quruluşunun əsas prinsipi kimi siyasi plüralizmi ardıcıl müdafiə etməsi və bu səbəbdən nümayəndəli orqan tərkibində müxtəlif siyasi əqidəyə malik olan partiyaların mövcudluğunu ədalətli hesab etməsi və s. bu qəbildən olan fikirləri ətraflı təhlil edilmişdir;

– C.Məmmədquluzadənin ideal cəmiyyət və dövlət, cəmiyyətin inqilabi yolla dəyişdirilməsi barədə fikirləri mütəfəkkirin əsərlərinin ətraflı təhlili nəticəsində müasir elmin inkişaf səviyyəsi baxımından yenidən qiymətləndirilmişdir. Konkret olaraq göstərilmişdir ki, C.Məmmədquluzadə inqilabi hərəkat barəsində fikirlərində konkret sinfi maraqlardan çıxış etməmiş, xalqı vahid siyasi subyekt kimi nəzərdən keçirmiş və demokratik respublika şəraitində onu yeganə hakimiyyət mənbəyi kimi tanımışdır;

– C.Məmmədquluzadənin şəxsiyyətin cəmiyyətdə rolu, insan azadlığı, xüsusilə, şəxsiyyətlə dövlət arasında qarşılıqlı əlaqə barədə fikirlərinin araşdırılması əsasında göstərilmişdir ki, mütəfəkkir məsələ ilə bağlı Azərbaycan hüquqi fikrinin təbii hüquq haqqında mütərəqqi ənənələrini inkişaf etdirərək, insanların anadangəlmə ayrılmaz hüquq



dövlət quruluşu – demokratik respublika ilə sıx bağlıdır. Onun fikrincə, yeni hüquqi sistemin əsasını xalqın sosial maraqlarının ifadəsi olan qanunvericilik təşkil etməli idi və qanunların verilməsinin, onların təfsirinin cəmiyyətin ali təbəqələrinin, xüsusən də ruhanilərin inhisarında saxlanılması yolverilməz idi; qanunlar həyatın tələblərinə uyğun gəlməli idi.

«C.Məmmədquluzadə şəxsiyyətin hüquqi vəziyyəti və insan hüquq və azadlıqları haqqında» adlanan III fəslin ikinci yarımfəslində qeyd olunmuşdur ki, mütəfəkkir qanunvericiliyə sırf nəzəri, mücərrəd aspektlərdən yanaşmamış, onun yeni hüquq sistemi ilə bağlı fikirləri insan hüquq və azadlıqlarına, ayrı-ayrı hüquq institutlarına münasibətdə şərh olunurdu.

Mütəfəkkir şəxsiyyətin sosial yetkinliyində ictimai mühitlə yanaşı, təlim və tərbiyəni, insanların maariflənməsini, xüsusən də siyasi maariflənməsini mühüm amil sayırdı. Onun fikrincə, məhz düzgün tərbiyə ictimai-siyasi həyatdakı səfalətə, qaranlığa, zülmə və istibdada qarşı mübarizənin əsasını təşkil edir.

Tədqiqatçı xüsusi olaraq vurğulayır ki, C.Məmmədquluzadə digər mütəfəkkirlər kimi, insanın anadangəlmə təbii hüquqları ideyasını müdafiə etmiş, hamının sosial varlıq kimi eyni hüquq və azadlıqlara malik olmalarının zəruriliyini və cəmiyyət üzvü kimi fəaliyyət sərbəstliyini göstərirdi. Dissertasiyada qeyd edildiyi kimi, C.Məmmədquluzadə Azərbaycanın ictimai-hüquqi fikrinin mütərəqqi ənənələrini davam etdirmiş və M.F. Axundzadə, H. B. Zərdabi və digər görkəmli mütəfəkkirlər kimi təbii hüquq məktəbinin ideyalarının tərəfdarı, nümayəndəsi, hətta demək olar ki, yeni tarixi dövrdə onun ideoloqlarından biri qismində çıxış etmişdir.

İnsan hüquqlarına böyük qiymət verməsi ilə yanaşı, C.Məmmədquluzadə onlara müasiri olduğu cəmiyyətdəki münasibəti, göstərilən təbii hüquqların nə dərəcədə reallaşması məsələsinə də diqqət yetirirdi. İnsan hüquqları sırasında mütəfəkkir, başlıca olaraq, şəxsi hüquq və azadlıqlar, xüsusən də fikir və vicdan azadlıqları haqqında ətraflı bəhs edirdi. O, bu azadlıqları şüurlu fəaliyyəti və əqidə müstəqilliyi baxımından yüksək qiymətləndirirdi.

Dissertasiyanın bu bölümündə C.Məmmədquluzadənin vicdan azadlığı məsələsinə iki aspektdən: mənəvi-əxlaqi və sırf hüquqi aspektdən yanaşdığı göstərilir. Bunların hər ikisi arasındakı əlaqə məhz mənəvi, daxili azadlıq ideyasından keçir.

Mütəfəkkir siyasi hüquq və azadlıqları diqqət mərkəzində saxlamağa çalışaraq, birləşmək azadlığını, insanın siyasi əqidəsinə uyğun

Fəslin «C.Məmmədquluzadənin şəriət normalarına münasibəti, hüquq və qanunvericilik haqqında fikirləri» adlanan birinci yarımfəslində qeyd olunmuşdur ki, mütəfəkkir müsəlman hüquq normalarının əsasında dayanan dini ehkamlara, onlara əsaslanan ayinlərə, ayrı-ayrı dini mərasimlərə xalqı öz həyatını yaxşılaşdırmaq uğrunda mübarizədən yayındıran, maarifdən, elmdən, mədəniyyətdən, inkişafdan uzaqlaşdıran amil kimi tənqidi münasibət bildirirdi.

C.Məmmədquluzadənin bu məsələlərə dair fikirlərinin təhlili əsasında onların aşağıdakı cəhətlərə malik olduğu qeyd edilmişdir:

1) dini göstərişlər və bəzi fiqh normaları, əsasən də ailə-nikah, valideyn-övlad münasibətləri sferasında müəyyən norma halına gətirilmiş adət və ənənələr məhz cəmiyyətin sosial-iqtisadi, mədəni-maarif sahələrində tərəqqiyə mane olduğuna görə tənqid hədəfinə çevrilmişdir;

2) mütəfəkkirin tənqid obyekti qismində bütövlükdə din və şəriət normaları deyil, bu normaları tətbiq edən müsəlman ruhanilərinin, qazıların fəaliyyəti götürülürdü; C.Məmmədquluzadənin islam dini və ya islam hüquq normaları mövzusuna həsr olunan əksər məqalə və felyetonları məhz ayrı-ayrı axundların və müctəhidlərin risalələrini hədəf götürür; onu maraqlandıran başlıca məsələlərdən biri islam hüquq normalarının müasir tətbiqi praktikasındakı nöqsanlardır;

3) şəriət normalarının tənqidi xristianlığı təbliğ edən missionerlərin tənqidi kimi aparılmır, əksinə, C.Məmmədquluzadə çar hakimiyyətinin yerli əhalini xristianlaşdırma məqsədi ilə göndərdiyi missionerlərə qarşı da dərin nifrət bəsləyirdi. Belə ki, mütəfəkkir dinin dövlətdən tam şəkildə ayrılmasını, insanların siyasi, iqtisadi, sosial-mədəni həyatının dünyəvi qanunlarla, ibadət məsələlərinin isə yalnız dini normalarla tənzimlənməsi məsələsini qoyur, hakimiyyət dairələrinin, digər ictimai qurumların və ya şəxslərin insanların vicdan azadlığına müdaxiləsini yolverilməz hesab edirdi;

4) mütəfəkkir nadanlıq və cəhalət yayan ruhaniləri, «biçarə əhalinin boynuna» müxtəlif yollarla «zəncir» taxan məzhəb və təriqətlər arasındakı mübarizəni kəskin tənqid atəşinə tuturdu.

İddiaçının fikrincə, mütəfəkkirin müəyyən müsəlman hüquq normaları və adət-ənənələrə qarşı çıxış etməsinin əsas məqsədi onun ideal hesab etdiyi ictimai-siyasi quruluşa uyğun gələn, yeni, mütərəqqi qanunların yaradılması olmuşdur. Başqa sözlə o, tamamilə fərqli prinsiplər üzərində dayanan dünyəvi qanunvericiliyin formalaşdırılmasının tərəfdarı idi və onun əsas prinsiplərini öz yaradıcılığında əks etdirmişdi. C.Məmmədquluzadənin 1906-1917-ci illərdə yazdiğı əsərlərin təhlilindən göründüyü kimi, onun arzuladığı ideal hüquqi sistem yeni, ideal



və azadlıqları, kişi və qadın bərabərliyi prinsipinə tərəfdar çıxmış, fikir və vicdan azadlığına, siyasi azadlıqlara riayət olunmasını tələb etmişdir. Mütəfəkkirin xüsusi diqqəti xalqların, millətlərin hüquq və azadlıqlarına, əsasən də milli dilin qorunması, onun işlədilməsi yolunda maneələrin aradan qaldırılması və inkişafı məsələlərinə yönəlmişdir;

– C.Məmmədquluzadənin dinə olan münasibətinin obyektivlik prizmasından yenidən qiymətləndirilməsinə cəhd göstərilmiş, xüsusən də Sovetlər dönəmində dinlə əlaqəli formalaşmış mövqelərdən fərqli olaraq, onun vicdan azadlığına hörmət prinsipini əsas tutması və bir çox hallarda hətta insanların dini etiqad azadlığını müdafiə etməsi göstərilmişdir. Eyni zamanda, mütəfəkkirin bəzi ictimai münasibətlərin islam hüquq normaları ilə tənzimlənməsinə tənqidi münasibəti və tamamilə fərqli prinsiplərə əsaslanan dünyəvi qanunvericiliyə tərəfdar olduğu müəyyənləşdirilmişdir;

– mütəfəkkirin siyasi idealı ilə bağlı mühüm cəhət ondan idarətdir ki, onun idealının, cəmiyyət, dövlət və hüquqi bilgilərinin əsasında məhz insan hüquqları və azadlıqlarının dayanmasıdır. İstər demokratik respublika quruluşunu xarakterizə edərkən, istərsə də qanunvericilik sahəsində zəruri dəyişikliklərdən bəhs edərkən, mütəfəkkir məhz insan hüquq və azadlıqlarını ümdə şərt kimi götürmüşdür;

– C.Məmmədquluzadənin siyasi-hüquqi fikrin inkişafına verdiyi əsas töhfələrdən biri, yeni qəbul edilən qanunvericilik aktlarının ictimai münasibətlərə uyğunluğu ideyasını ardıcıl müdafiə etməsidir. Feodal mütləqiyyətinin hökmran olduğu ölkələrdə – Rusiyada, İranda və Türkiyədə inqilabi hərəkatın təsiri ilə hakim dairələrin verdiyi qanunların zahirən demokratik formaya malik olmasına baxmayaraq, C.Məmmədquluzadə onların reallıqda tətbiq edilməyənə qədər heç bir əhəmiyyətinin olmayacağını göstərirdi. Bunun əsasında da o, ictimai həyatın, tarixi şəraitin tələblərinə uyğun olmayan qanunvericiliyin tənqidinə xüsusi yer verirdi;

– C.Məmmədquluzadənin beynəlxalq hüquq və beynəlxalq münasibətlər məsələsinə, dünya ölkələrinin siyasətinə dair fikirlərinin təhlili əsasında, onun antiimperialist mövqeyinin yeni cəhətləri üzə çıxarılmışdır. Dissertasiya işində aparılmış tədqiqat belə nəticəyə gəlməyə əsas verir ki, C.Məmmədquluzadə sadəcə beynəlxalq siyasət məsələlərinə diqqət yetirməmiş, həmçinin beynəlxalq hüququn müasir dövrdə tanınmış, başlıca əhəmiyyətə malik olan prinsiplərini – dövlətlərin suveren bərabərliyi, daxili işlərinə qarışmama, millətlərin öz müqəddəratını təyin etmə və s. kimi prinsipləri əsaslandıran tələbləri irəli

sürmüşdür. Mütəfəkkirin beynəlxalq hüquqa aid fikirləri də göstərilən prinsiplərə söykənirdi.

Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti. Bu gün müstəqillik əldə etmiş Respublikamızda sivil, demokratik, hüquqi dövlət, əsil vətəndaş cəmiyyəti qurulur, qabaqcıl, ümumbəşəri prinsiplərə və milli tarixi ənənələrə əsaslanan ideologiya formalaşır. Zəngin fikir tariximizin, o cümlədən siyasi-hüquqi fikrin və bu kontekstdə C.Məmmədquluzadənin yaradıcılıq irsinin öyrənilməsi ilə Azərbaycanın siyasi-hüquqi təlimlər tarixindəki boşluqların tamamlanmasına xidmət göstərilməsinin mühüm nəzəri əhəmiyyəti şəksizdir. Görkəmli mütəfəkkirimizin yaradıcılığının və ictimai-siyasi fəaliyyətinin öyrənilməsi, onun cəmiyyət, dövlət, hüquq və qanunçuluq barəsində fikirlərinin araşdırılması böyük nəzəri və praktiki əhəmiyyətə malikdir.

Tədqiqat işində irəli sürülən müddəalar Azərbaycanın siyasi-hüquqi təlimlər tarixinə dair tədqiqatların aparılmasında, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda demokratik, milli-maarifçilik hərəkatlarının ideya-siyasi köklərinin araşdırılmasında mühüm bir təməl ola bilər. Bundan əlavə, tədqiqat işinin elmi nəticələrindən Azərbaycanın siyasi və hüquqi təlimlər tarixi fənninin tədrisində dərs vəsaiti kimi də istifadə edilə bilər.

Tədqiqatın nəticələrinin aprobasiyası mövzu üzrə elmi məqalələrin çap edilməsində, həmçinin Bakı Dövlət Universitetinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının iclaslarında və elmi konfranslarda tədqiqatçının müvafiq çıxışlarında həyata keçirilmişdir.

Dissertasiyanın strukturu tədqiqatın məqsədləri, vəzifələri və metodologiyası ilə şərtlənir. Dissertasiya işi girişdən, on iki yarımfəsli əhatə edən üç fəsildən, nəticə hissəsindən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı, nəzəri işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri açıqlanır, müdafiəyə çixarılan əsas müddəalar, tədqiqatın metodoloji və nəzəri əsasları, elmi yeniliyi, dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti, həmçinin tədqiqatın nəticələrinin aprobasiyası qeyd edilir.

Dissertasiyanın birinci fəsli «C.Məmmədquluzadənin siyasi-hüquqi ideyalarının formalaşması» adlanır. XIX əsrin II yarısı – XX əsrin əvvəllərində siyasi-hüquqi ideologiyanın istiqamətlərinin xarakteristikasını ehtiva edən birinci yarımfəsildə mütəfəkkirin dünyagörüşünün,



yaratmaq azadlığı və s.) görürdü.

Yuxarıda qeyd olunanların təhlili əsasında dissertasiyada belə qənaətə gəlinir ki, C.Məmmədquluzadə dövlət və idarəçilik haqqında fikirlərində əsasən inqilabçı-demokrat ideologiyasına sadiq qalmış, respublika quruluşu tərəfdarı kimi çıxış edərək, xalq kütlələrini məhz bu quruluş uğrunda mübarizə aparmağa çağırmış, onun mütləq monarxiya sisteminə qarşı mübarizəsi, siyasi azadlıq, demokratiya ideyalarını təbliğ etməsi kütlələrin inqilabi ruhda tərbiyə edilməsində mühüm rol oynamışdı.

«C.Məmmədquluzadənin cəmiyyətin inqilabi yolla yenidən qurulmasına münasibəti» adlanan II fəslin dördüncü yarımfəslində qeyd olunmuşdur ki, mütəfəkkir feodal istibdad üsul-idarəsinin ləğvinin zəruriliyini göstərməklə vəzifəsini bitmiş hesab etmirdi. O, artıq siyasi və hüquqi fikirlərinin inkişafının ikinci dövründən başlayaraq mövcud quruluşu dəyişdirib demokratik respublika qurmağın əsas yolunu yalnız inqilabda görürdü. «Molla Nəsrəddin» ilk nömrələrindən başlayaraq hürriyyətin asanlıqla, «göz yaşı tökməklə» əldə edilmədiyini bəyan edir, zülmə, istismara, hüquqsuzluğa son qoymaq üçün mübarizə aparmağın labüdlüyünü bildirirdi.

Xalqı passiv, siyasi düşüncə və mədəni yaradıcılıqdan məhrum bir qüvvə hesab edənlərə qarşı var gücü ilə mübarizə aparan C.Məmmədquluzadə hesab edirdi ki, istibdad üsuli-idarəsi xalqı əzmiş, «gözləri kor, qulaqları kar, dilləri lal» etmişdir. Xalqın nadanlığına və cəhalətinə səbəb istismarçı mühitdir. Lakin xalq kortəbii zərurətin əsiri deyildir, xalq tarixin gedişini dəyişdirə bilər və dəyişdirməlidir. C.Məmmədquluzadə məhz xalqı cəmiyyəti dəyişdirə bilən bir qüvvə hesab edirdi. O, göstərirdi ki, tarixdə mühüm çevrilişlər, inqilablar məhz xalq kütlələrinin fəaliyyəti nəticəsində baş vermişdir.

Tədqiqatçının fikrincə, C.Məmmədquluzadə haqlı olaraq hesab edirdi ki, inqilabın «aqibəti», «taleyi» xalqdan, xalqın inqilabi hərəkatda fəal iştirakından asılıdır. Xalq özü-özünü azad etməli, xalq adından danışıb ona xəyanət edən «böyüklərdən» kömək gözləməməlidir. Mütəfəkkir mütləqiyyət quruluşu qaldıqca azadlığın mümkün olmayacağını, demokratiya tərəfdarlarının təqib ediləcəklərini kütlələrə başa salırdı.

Dissertasiya işinin «C.Məmmədquluzadənin hüquqi ideyaları» adlanan III fəslində mütəfəkkirin hüquq, ayrı-ayrı hüquq institutları, qanunvericilik və qanunçuluq haqqında, şəriət normalarına münasibəti, şəxsiyyətin hüquqi vəziyyəti və insan hüquq və azadlıqları, qadın azadlığı, beynəlxalq hüquq məsələləri ilə bağlı ideyaları təhlil edilmişdir.

idarəsi camaatın öz öhdəsində və ixtiyarındadır, necə ki, məsələn, Firəngistan, İsveçrə və qeyriləri. …Cümhuriyyət üsulu mocibincə məmləkətin idarəsi camaatın öz ixtiyarındadır. Camaat dedikdə vətənin sahibidir. Dəxi heç bir kəsin ixtiyarı yoxdur ki, özünə padşah adı qoyub, millətin rəyindən kənar məmləkət işinə qarışsın. Məmləkət müəyyən qanunlar gücü ilə idarə olunur. O qanunları yazan və təsdiq edən millətin məbusları, yəni vəkilləridir»[1].

Bu yarımfəsildə C.Məmmədquluzadənin ideal hesab etdiyi respublika idarəçiliyində prezidentlik institutunun fəaliyyəti barədə də bəhs olunmuşdur. Mütəfəkkir prezident institutunun atributlarını ətraflı xarakterizə edərək prezidentin xalq tərəfindən seçilməsi, müavinlərin idarəetmə işində ona köməkçi olması və s. atributları açıb göstərirdi.

Güman etmək olar ki, C.Məmmədquluzadənin respublika ilə bağlı fikirlərində onun konkret növləri (prezidentli və ya parlamentli respublika) barədə ümumi məlumatı olmuşdur. Lakin mütəfəkkirin əsərlərində onların xüsusiyyətləri, fərqli cəhətləri barədə konkret fikirlər söylənilməmişdir. Hesab edilir ki, bu məsələ ətrafında müzakirələrin aparılmaması və konkret idarəçilik formalarından birinə üstünlüyün verilməməsi dövrün ictimai-siyasi vəziyyətindən asılı olmuşdur. Belə ki, hələ keçid dövrünü yaşayan, fevral inqilabı nəticəsində təzəcə cümhuriyyət quruluşuna qədəm qoymuş Rusiyada dövlət quruluşu məsələsi qəti şəkildə həll olunmamış və bunun üçün kifayət qədər təcrübə də toplanmamışdır. Buna görə də, dövrün tələblərini nəzərə alan başqa mütəfəkkirlər kimi, C.Məmmədquluzadə də bu barədə konkret təklif irəli sürməmişdir.

Cümhuriyyətin xüsusiyyətlərindən bəhs edərkən, xalq hakimiyyətinin mühüm atributlarından biri olan seçki sistemi C.Məmmədquluzadənin diqqət mərkəzində olmuş, mütəfəkkir ümumbəşəri dörd prinsipin – seçkilərin ümumiliyi, seçicilərin səslərinin bərabərliyi, mərhələli seçki və gizli səsvermənin tətbiqini zəruri hesab etmişdir.

Respublika idarəetmə üsulunun müsbət cəhətlərini şərh edən mütəfəkkir respublika quruluşunda xalqın ictimai-siyasi sahələrdə hüquq və azadlıqlarını sadalayaraq göstərir ki, onların təmin edilməsi dövlət siyasətinin əsasını təşkil etməlidir. C.Məmmədquluzadə respublika quruluşunun əsas və həlledici prinsipini tam insan azadlığında və onun təzahürlərində (vicdan, söz, mətbuat, yığıncaq, ittifaq və təşkilatlar

---

[1] Məmmədquluzadə C. Cümhuriyyət / Məmmədquluzadə C. Əsərləri. Dörd cilddə. IV cild, Bakı: Öndər nəşriyyat, 2004, s. 191-192.



ictimai-siyasi və hüquqi baxışlarının formalaşmasını şərtləndirən amillər göstərilmişdir. Məlum olduğu kimi, XIX əsr Azərbaycan xalqının tarixində, onun sosial-iqtisadi, siyasi və mədəni həyatında son dərəcə mühüm dəyişikliklər dövrü olmuşdur. Əsrin əvvəllərində Rusiya imperiyasının müstəmləkəsinə çevrilən ölkəmizdə çarizmin millətçilik, ucqar əyalətlərə və qeyri-rus millətlərinə qarşı ayrı-seçkilik siyasəti yürüdülür, aqrar və sosial islahatlar bu bölgələrdə yarımçıq həyata keçirilir, bu isə xalqın həyat şəraitinə mənfi təsir göstərirdi. Eyni zamanda bu proseslər milli azadlıq məfkurəsinin formalaşmasına təkan vermiş, xalqımızın gələcək milli oyanışı və dirçəlişi üçün zəruri olan sosial-siyasi və iqtisadi şərait yaratmışdı.

Dissertasiyada ötən əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və hüquqi fikrində əsas rol oynayan ideya cərəyanları və istiqamətlərinin ayırd edilməsi zərurətinin meydana gəlməsi qeyd olunur və XIX əsrin sonlarında bir sıra cərəyanların meydana çıxması ilə xarakterizə olunduğu vurğulanır.

C.Məmmədquluzadənin müasiri olduğu həmin dövrdə Azərbaycanın ictimai-siyasi həyatında özünə yer almış müxtəlif ideoloji cərəyanlar hərtərəfli xarakterizə olunmuş, onların xüsusiyyətləri və fərqləndirici cəhətlərinə diqqət çəkilmişdir.

Dissertasiya işinin bu yarımfəslində xüsusi diqqət XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda inqilabçı-demokratiya cərəyanının müstəqil ideya-siyasi istiqamət kimi xarakterik xüsusiyyətləri qeyd olunmuşdur.

XIX əsr maarifçi-demokratları kimi, inqilabçı demokratların da siyasi ideallarının araşdırılması onların konstitusiyalı monarxiyadan demokratik respublikaya doğru istiqamət götürdüklərini isbatlayır. Aqrar məsələnin bütün kəndlilərə torpaq sahələrinin verilməsi yolu ilə həlli, fəhlə məsələsinin həlli; əhalinin bütün təbəqələri tərəfindən seçilən parlamentli respublika idarəetmə formasına əsaslanan xalq hakimiyyətinin qurulması yolu ilə yeni, mütərəqqi siyasi quruluşun bərqərar edilməsi, şəxsiyyətin həqiqi azadlığının təmin edilməsi və s. kimi demokratik tələbləri irəli sürən inqilabçı-demokratları fərqləndirən əsas xüsusiyyət onların sırf Azərbaycan və Cənubi Qafqaz problemlərinə daha çox diqqət yetirmələri, habelə digər cərəyanlara qarşı kəskin müxalifətdə çıxış etməyərək, bu cərəyanların nümayəndələrinin ideyalarından müsbət cəhətləri əxz etdirmələri olmuşdur.

Birinci fəslin «C.Məmmədquluzadənin yaradıcılığı və siyasi-hüquqi görüşlərinin inkişafının dövrləşməsi» adlanan ikinci yarımfəsli mütəfəkkirin siyasi-hüquqi dünyagörüşünün inkişafı mərhələlərini

müəyyənləşdirməyə həsr olunmuşdur.

Dissertasiyanın bu yarımfəslində C.Məmmədquluzadənin siyasi-hüquqi görüşlərinin formalaşmasına təsir göstərən mühüm faktorlar, ictimai mühit, o cümlədən bioqrafik məlumatlar – onun Qori müəllimlər seminariyasında təhsil aldığı illər, müəyyən müddət ərzində yerli hüquq mühafizə orqanlarında çalışması araşdırma obyektinə çevrilmişdir.

Bu bölmədə həmçinin C.Məmmədquluzadənin siyasi-hüquqi baxışlarının formalaşmasının ideya mənbələrinə xüsusi yer verilmişdir. İctimai fikrin inkişafının tarixi mərhələlərinin varisliyi mövqeyindən öyrənilməsinin vacibliyi ön plana çəkilmişdir.

Bu baxımdan da dissertasiyanın göstərilən yarımfəslində C.Məmmədquluzadənin siyasi-hüquqi ideyalarının formalaşmasına təsir göstərmiş mütəfəkkirlərdən M.F. Axundzadə və H.B. Zərdabi və M. Şahtaxtlının yaradıcılığı xüsusilə vurğulanmışdır.

C.Məmmədquluzadə yaradıcılığının təhlilində digər mühüm məsələ onun dövlət və hüquqla bağlı fikirlərinin inkişafının dövrləşdirilməsidir. C.Məmmədquluzadənin yaradıcılıq irsinin təhlili nəticəsində mütəfəkkirin siyasi və hüquqi fikirlərinin formalaşması və inkişafının aşağıdakı üç dövrə bölünməsi qənaətinə gəlinir:

1) 1882-1906-cı illər – mütəfəkkirin siyasi dünyagörüşünün əsaslarının, rüşeymlərinin qoyulduğu dövr. İdeya-siyasi baxışlarının formalaşmasının ilkin dövründə C.Məmmədquluzadənin əsərlərində bəzi sosial məsələlər qoyulur, feodal ictimai münasibətlərinin, fanatizmin, mövhumatın, mülkədarların və ruhanilərin özbaşınalığının tənqidi verilir («Çay dəsgahı», «Kişmiş oyunu», «Danabaş kəndinin əhvalatları», «Poçt qutusu», «Usta Zeynal» və s.). XX əsrin əvvəllərindən etibarən C.Məmmədquluzadənin yaradıcılığı hələ konkret və formalaşmış siyasi-hüquqi fikirlər sisteminə malik olmasa da, artıq sadə məişət mövzularının hüdudlarından kənara çıxırdı («İranda hürriyyət», «Binəsiblər», «Faydalı təşəbbüs», «Bəs Aspisova xanımın qızları üçün məktəbi necə oldu?», «Əsarətdə», «Xeyir-dua» və s.). Göstərilən dövrün sonlarına yaxın «Şərqi-Rus» qəzeti ilə sıx əməkdaşlığı onun sonralar bir mütəfəkkir kimi formalaşmasına köməklik göstərmişdi.

2) 1906-1917-ci illər – mütəfəkkirin ictimai və dövlət quruluşu, siyasət və hüquq haqqında fikirlərinin formalaşdığı və inkişaf etdiyi dövr. Həmin dövrdə C.Məmmədquluzadənin siyasi-hüquqi baxışları zənginləşərək daha geniş məsələləri, xüsusən də sosial problemləri əhatə etmişdir. Mütəfəkkirin siyasi və hüquqi fikirlərinin əsas məzmunu mövcud ictimai və dövlət quruluşunun, bir sıra şəriət normalarının



Türkiyədəki mütləq monarxiyanın şərtləndirdiyi hər cür qanunsuzluğu bu quruluşun xalqa yabançı təbiəti ilə izah etmiş, müstəbidlərin özlərini «yer üzünün allahı» hesab etdiklərini, xalqın qüvvəsinə deyil, orduya, zorakılığa arxalandıqlarını tənqid etmiş, şahların konstitusiya tərəfdarı olması haqqındakı uydurmaları ifşa etmişdi. Şərq ölkələrində yazılı konstitusiyaların qəbul edilməsi, mütəfəkkirin fikrincə, hələ Avropa sayağı konstitusiyalı monarxiya quruluşuna yiyələnmək üçün kifayət etmirdi. O, tam əminliklə inanırdı ki, buna yalnız müstəbid hökmdarları camaatın gücü ilə yıxdıqdan sonra nail olmaq olar: «…Avropa xalqları dövlət quruluşunun tarixini nəzərə aldıqda onda (Midhəd paşada – T. Z.) belə bir əqidə yarandı ki, onun həmvətənlərinin xoşbəxtliyi yalnız sultanın ali hakimiyyətinin istibdadını aradan qaldırmaq yolu ilə mümkün olar».[1]

Dissertasiyanın bu bölümündə C.Məmmədquluzadənin əsərlərinin təhlili nəticəsində belə qənaətə gəlinmişdir ki, mütəfəkkir siyasi ideyalarında konstitusiyalı monarxiya quruluşunda təkcə yazılı əsas qanunun verilməsi ilə deyil, həm də bu qanunun əsasında xalqın istək və iradəsinin dayanmasını, siyasi hakimiyyətin xalqın əlində olmasını vacib sayırdı. O, qəti surətdə əmin idi ki, konstitusiyanın qəbul edilməsi, hər hansı bir yeni qanunun verilməsi və ya hökmdarın devrilməsi hələ ictimai-siyasi quruluşun dəyişilməsi demək deyildir. O, cəmiyyətdə inqilabi dəyişikliklərin aparılması, ictimai və siyasi həyatın demokratik əsaslarla yenidən əsaslı şəkildə qurulması uğrunda mübarizəyə çağırırdı. C.Məmmədquluzadə xalqın azadlıq və demokratik hüquqlar əldə etməsinin yeganə yolunu dövrünün ictimai-siyasi quruluşunun dəyişdirilməsində, mütləq monarxiya quruluşunun süquta yetirilməsində görürdü.

Fevral inqilabı və ondan sonrakı dövrdəki yaradıcılığında, yəni siyasi-hüquqi fikirlərinin inkişafının üçüncü dövrünün başlanğıcında C.Məmmədquluzadə dövlət quruluşu idealının şərhinə daha geniş yer vermişdir. Tədqiqatçı dissertasiya işində mütəfəkkirin 1917-ci ildə yazdığı və dövlət haqqında görüşlərinin yekunu və zirvəsi hesab edilən «Cümhuriyyət» məqaləsində öz təcəssümünü tapan respublika idarəetmə formasının mahiyyətini şərh etməklə yanaşı, onun mühüm cəhətlərini də qeyd edirdi. Mütəfəkkir, məhz xalqın idarə etdiyi demokratik respublika ideyasını irəli sürürdü: «Vətəndaşlar! Cümhuriyyət, yəni latınca «Respublika» elə bir hökumətə deyirlər ki, orada məmləkətin

---

[1]Məmmədquluzadə C. Türkiyə məşrutəsinin keçmişindən / Məmmədquluzadə C. Əsərləri. Dörd cilddə. IV cild, Bakı: Öndər nəşriyyat, 2004, s. 140.

sədə Dumanın səlahiyyətlərinin kifayət edəcək səviyyədə olmaması, həmçinin Dumanın müsəlman üzvlərinin bir çox taleyüklü məsələlərin müzakirəsi və həllində passiv mövqe tutmaları ilə bağlı fikirləri təhlil edilir.

Daha sonra, mütəfəkkirin car Rusiyasının yeritdiyi müstəmləkəçilik siyasətinə dair ideyalarının mahiyyətinə diqqəti çəkən tədqiqatçı göstərir ki, hələ XIX əsrin əvvəllərindən başlayaraq, Rusiyanın hakim dairələri tərəfindən mütləqiyyət, pravoslavlıq və xəlqilik kimi prinsiplərə əsaslanan, ucqarların açıq surətdə ruslaşdırılması siyasətində, Rusiyanın mərkəzi quberniyalarından Qafqaza əhali köçürülməsi kimi tədbirlərdə öz əksini tapan siyasi məqsədlərin reallaşdırılması istiqamətində əməli addımlar atılırdı. Müstəmləkə siyasətinin tərkib hissəsi sayılan bu qisim «tədbirlər» C.Məmmədquluzadə tərəfindən açıq ifşa edilirdi.

Mübariz demokrat çarizmin ruslaşdırma siyasətinin timsalı kimi dövlət, cəmiyyət işlərində vəzifələrin ruslara tapşırılmasını, rus dilinin hakim, milli dilin məhkum vəziyyətini, müsəlmanların cəhalət mühitində, mütilik vəziyyətində saxlandığını sosial ədalətsizlik sayır və bu siyasəti tənqid edirdi. O, milli dilin müstəqilliyini millətin azadlığı ilə bağlayırdı. Dissertasiya işində C.Məmmədquluzadənin Azərbaycan dilini müstəqil siyasi səsi olan bir xalqın, dövlətin rəmzi hesab etməsi, Azərbaycan ərazilərindəki idarəetmə təsisatlarında ana dilindən geniş istifadə edilməsinin vacibliyi xüsusilə vurğulanır.

Tədqiqatın II fəslinin üçüncü yarımfəslində C.Məmmədquluzadənin siyasi idealı, dövlət və dövlətin formaları haqqında ideyalarının təkamülü məsələlərinə baxılır.

Dissertasiyanın bu hissəsində qeyd olunduğu kimi, mütəfəkkir dövlətin ilahi mənşəyi haqqında müddəaları qəti surətdə rədd etmiş, dövlətin meydana gəlməsini cəmiyyətin təbəqələrə bölünməsi, əmlak bərabərsizliyinin ortaya çıxması ilə əlaqələndirmiş, dövlət hakimiyyətini isə hakim təbəqənin, varlıların əlində istismar vasitəsi hesab etmişdi. O, tarixdə üç idarəetmə üsulunu fərqləndirmişdi: mütləq monarxiya, konstitusiyalı monarxiya və respublika.

Tədqiqatçı göstərir ki, C.Məmmədquluzadə feodal mütləqiyyətinin mahiyyətindən bəhs edərək yazırdı ki, bu dövlət quruluşunda xalq hüquq və azadlıqlardan məhrumdur, qanunlar yalnız müstəbidlərə xidmət edir, yalnız xalq müstəbid hökmdarı güc yolu ilə devirdikdən sonra azadlıq əldə edə bilər.

Mütəfəkkirin mütləqiyyət quruluşunun tənqidi daha çox İran və Türkiyədəki idarə üsulunun timsalında öz təcəssümünü tapırdı. O,



tənqidindən, ictimai həyatın, mövcud idarəetmə sisteminin bütün qüsur və çatışmazlıqlarının ifşa edilməsindən, zamanın tələbləri ilə uzlaşmayan hüquq normalarının yeni, daha mütərəqqi qanunlarla əvəz edilməsinin zərurəti kimi nəticələrə gəlinməsindən ibarət idi. Mütəfəkkirin bu dövr üçün xarakterik olan siyasi-hüquqi fikirlərinin ifadə olunduğu və əsasən «Molla Nəsrəddin» jurnalında, eləcə də digər mətbu orqanlarında dərc edilmiş əsərlərinin sırasında «Müsəlman içində gördüklərim», «Lüğət», «Bir boçka su», «Türk məşrutəsinin keçmişindən», «Hicab məsələsi və cavabımız», «Bakıda Çornı qorod fəhlələrinə», «Mıncıq», «Ustalıpin», «Şükr və səna», «Zəncir», «Mikroblar», «Divar» və s. kimi məqalə və felyetonları qeyd etmək olar.

Bu dövrdə C.Məmmədquluzadə, həmçinin qəti olaraq sosial-siyasi problemlərin həllində inqilabçı-demokrat kimi çıxış etmiş, mütəfəkkir yuxarıların yarımçıq islahatları yolu ilə deyil, yalnız radikal inqilabi dəyişikliklər yolu ilə məqsədə nail olmanı mümkün saymışdı.

3) 1917-1931-ci illər – mütəfəkkirin siyasi və hüquqi ideyalarının təkmilləşməsi, siyasi ideal haqqında təsəvvürlərinin yetkinləşməsi dövrü. 1917-ci ilin əvvəllərində çarizmin devrilməsi C.Məmmədquluzadənin siyasi-hüquqi dünyagörüşündə əhəmiyyətli dönüş yaratdı. Bu dönüş hər şeydən əvvəl, Azərbaycan Xalq Cümhuriyyətinin əsaslarını təşkil edən ideya və fikirlərin müdafiəsindən (məsələn, «Cümhuriyyət» məqaləsində) ibarət olmuşdur; C.Məmmədquluzadənin siyasi idealı ilə bağlı təsəvvürləri konkretləşmişdi; əgər mütəfəkkir əvvəllər yalnız xalq hakimiyyətinin yaradılmasına çağırırdısa, 1917-ci ildən sonra bu çağırış konkret cümhuriyyət ideyalarına, ictimai və dövlət quruluşunda, hüquqi sahədə geniş islahatlar proqramı ilə əsaslandırılırdı. Əvvəlki dövrdə irəli sürülən ideyalar cilalanmış, təkmil forma almış və dövrün tələblərinə, siyasi hadisələrin gedişatına uyğun təkmilləşdirilmişdir. Beləliklə, 1917-ci ilin sonlarından başlayaraq, C.Məmmədquluzadə daha açıq və konkret şəkildə milli dövlətçilik ideyalarını müdafiə etməyə başlamışdı. Bu ideyaların klassik təcəssümünü «Molla Nəsrəddin» jurnalında çap edilmiş «Azərbaycan» adlı məqalədə görmək olar. Burada mütəfəkkir, ümumbəşəri dəyərlərə əsaslanmaqla yanaşı, milli mənafeyə xidmət edən, milli dilin və mədəniyyətin inkişafını təmin edən bir dövlət, eyni dərəcədə həm Bakını, həm də Təbrizi əhatə edən vahid, bütöv Azərbaycan arzulayırdı.

Dissertasiya işində mütəfəkkirin siyasi və hüquqi ideyaları göstərilən dövrdə nəşr olunmuş əsərləri («Rus məxrəci», «Millətlər», «Azadiyi-vicdan», «Firqələr davası», «Tüstü», «İnqilab lazım», «Şərq qadı-

nı», «Din və millət» və s.) əsasında təhlil edilmişdir.

I fəslin «Molla Nəsrəddin» jurnalında siyasi-hüquqi ideyaların əsas inkişaf istiqamətləri» adlanan üçüncü yarımfəslində XX əsrin əvvəllərindən Azərbaycanda demokratik ideyaların yetişməsində əvəzsiz rolu olmuş, siyasi-hüquqi baxışların təbliğində mühüm əhəmiyyət kəsb etmiş xalqımızın mənəvi-mədəniyyət abidələrindən biri sayılan «Molla Nəsrəddin» satirik jurnalının yarandığı tarixi şərait, onun ideya mənbələri, qarşısında duran vəzifələrin siyasi əhəmiyyəti araşdırılmış və bu günədək elmi ədəbiyyatda zəif işıqlandırılan məsələlərdən biri – jurnalda əks olunan siyasi-hüquqi ideyaların hansı istiqamətlər üzrə inkişaf etməsi məsələsi təhlil olunmuşdur. Xalqımızın ictimai fikrinə, onun siyasi inkişafına güclü təkan vermiş jurnalın mütərəqqi siyasi-hüquqi fikir sahiblərinin tribunası olan «Əkinçi», «Şərqi-Rus» kimi mətbuat orqanlarının işini davam etdirməsi, öz ətrafına demokratik ziyalıları toplayaraq xalqın azadlığı, maariflənməsi uğrunda mübarizə aparması vurğulanaraq, onun adi ictimai-ədəbi jurnal deyil, satirik-siyasi nəşr olması əsaslandırılır. Jurnalın müəlliflərini – başda C.Məmmədquluzadə olmaqla, M.Ə. Sabir, Ə. Haqverdiyev, Ə. Nəzmi, Ü. Hacıbəyov, E. Sultanov, Ö. Faiq Nemanzadə, S. Mümtaz, A. Şaiq, F. Köçərli, Q. Şərifov, Y.V. Çəmənzəminli, M. Sidqi və digər ziyalıları yalnız Azərbaycana aid problemlər deyil, bəlkə bütün müstəmləkə və yarımmüstəmləkə vəziyyətində olan Şərq ölkələrinin vəziyyəti maraqlandırırdı. Buna görə də onların irəli sürdüyü mütərəqqi ideyaların bütün müstəmləkələr üçün əhəmiyyəti şəksiz idi.

İddiaçı jurnalın birinci nömrəsindən başlayaraq ardıcıl olaraq həyata keçirilən ictimai-siyasi fəaliyyətinin istiqamətləri içərisində antidemokratik, avtoritar idarə üsulunun, xalqa zidd siyasətin ifşa edilməsi; Yaxın Şərq ölkələrindəki mütləqiyyət rejimlərinin, imperialist dövlətlərin, onların müstəmləkəçilik siyasətinin tənqidi; Şərq aləmində mütərəqqi siyasi-hüquqi ideyalar, elm, maarif və mədəniyyət uğrunda, dini fanatizmə, cəhalətə və mövhumata, avamlıq və geriliyə qarşı mübarizə; insan hüquq və azadlıqları, o cümlədən dini azadfikirlilik, cəmiyyətdə hökmran olan qayda-qanunların ümumbəşəri əxlaqi prinsiplərə uyğunlaşdırılması uğrunda mübarizə; qadın azadlığı və ona əngəl olan qayda-qanunların tənqidi; xalqların beynəlmiləl birliyi məfkurəsinin müdafiəsi, xalqın sosial ədalətsizliyə, maddi və hüquqi bərabərsizliyə, çar hökumətinin millətçilik, xalqları əsarət altına almaq siyasətinə qarşı mübarizəyə yönəldilməsi; çar Rusiyasının ucqarlarda məskunlaşan milli azlıqlara yönəlik siyasətinin tənqidini göstərir.

Dissertasiya işinin bu yarımfəslində həmçinin «Molla Nəsrəd-



din»nin qarşısında duran əsas vəzifələr – cəmiyyətdəki təzadların mahiyyətini ifşa etmək, feodal mütləqiyyətinə və Rusiya imperiyasında yürüdülən millətçilik siyasətinə, xalqın mənafeyi əleyhinə yönələn qanun və qaydalara, şəriət normalarından əlində siyasi təsir vasitəsi kimi istifadə edən ruhani təbəqəsinə qarşı ideoloji mübarizə aparmaq, inkişafın, tərəqqinin demokratiya yollarını tapmaq, bütün bunları xalqa sadə, anlaşılan dillə çatdırmaq, onu «qəflət yuxusundan» oyatmaq, xalqı ictimai fəaliyyətə həvəsləndirməklə onun siyasi şüurunu formalaşdıraraq azadlıq hərəkatının ön sıralarına getməsinə kömək etmək kimi məsələlər göstərilmişdir.

Dissertasiya işinin II fəsli «C.Məmmədquluzadə yaradıcılığında cəmiyyət və dövlət haqqında ideyalar» adlanır. Bu fəsildə konkret olaraq mütəfəkkirin ictimai və dövlət quruluşu, cəmiyyətin siyasi sistemi, dövlətin idarəçilik formaları, onun siyasi idealı və bu ideala çatmanın yollarından bəhs olunmuşdur.

«C.Məmmədquluzadənin əsərlərində mövcud ictimai quruluşa münasibət» adlanan birinci yarımfəsildə göstərilir ki, mütəfəkkir sinfi ziddiyyətlər və xalq kütlələrinin istismarını tənqid edərkən hər hansı sosial təbəqənin maraqlarını önə çıxarmırdı. Ümumiyyətlə o, cəmiyyətin siniflərə parçalanmasını qəbul etmirdi, onu bütövlükdə toplum, xalq olaraq təsəvvür edirdi. Cəmiyyətin yuxarı təbəqələri tərəfindən törədilən zülm və haqsızlıqları tənqid edərkən mütəfəkkirin ittihamları yalnız mülkədarlara və burjuaziyaya deyil, həm də dövlət məmurlarına ünvanlanırdı. Ümumən əməkçi kütlələrin acınacaqlı vəziyyətini, onların hüquqsuzluğunu, cəmiyyətdəki hökmran təbəqələrin azğınlığını açıb göstərməklə yanaşı, mütəfəkkir sinfi fərqlərin hər vasitə ilə qabardılmasının, onların insan əməllərinin qiymətləndirilməsi üçün yeganə meyar qismində çıxış etməsinin əleyhinə olduğunu açıqlayırdı.

İkinci fəslin «Müasir dövlət quruluşu, idarəçilik sisteminin, habelə çarizmin müstəmləkəçilik və milli siyasətinin tənqidi» adlanan ikinci yarımfəslində iddiaçı mütəfəkkirin dövlətin mövcud idarəetmə formasına, siyasi rejimin mahiyyətinə dair tənqidi fikirlərini təhlil edir. Bu təhlilin nəticəsində belə qənaətə gəlinir ki, C.Məmmədquluzadə ümumxalq iradəsinə əsaslanan nümayəndəli orqanın daha geniş səlahiyyətlərlə idarəçilikdə iştirakının tərəfdarı kimi çıxış edirdi. İddiaçı tərəfindən ötən əsrin əvvəllərində nümayəndəli orqan kimi yenicə fəaliyyətə başlamış Dövlət Dumasının formalaşması, onun səlahiyyətləri ilə bağlı məsələlərə diqqəti çəkən mütəfəkkirin bu təsisata münasibətdə tənqidi mövqeyi, Dövlət Dumasının parlament funksiyalarını tam olaraq yerinə yetirməməsi, digər hakimiyyət strukturları ilə müqayi-